# AZƏRBAYCAN RESPUBLİKASININ MƏRKƏZİ BANKIN İDARƏ HEYƏTİNİN QƏRARI

**№ 06/6**

**Bakı şəhəri** **"31" "yanvar" 2024-cü il**

**"Banklara aidiyyəti olan şəxslərlə əməliyyatların aparılması Qaydası"nın təsdiq edilməsi barədə**

"Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 34.2.7-ci, 34.2.8-ci, 34.2.14-cü, 40.1.1-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 22.1.17-ci maddəsinə əsasən Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti

**QƏRARA ALIR:**

1. "Banklara aidiyyəti olan şəxslərlə əməliyyatların aparılması Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş "Banklara aidiyyəti olan şəxslərlə əməliyyatların aparılması Qaydası" dərc edildiyi gündən bir ay sonra qüvvəyə minsin və həmin tarixdən Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2001-ci il 29 dekabr tarixli Qərarı (26 nömrəli protokol) ilə təsdiq edilmiş və 2002-ci il 17 yanvar tarixli 2739 nömrəli şəhadətnamə verilməklə dövlət qeydiyyatına alınmış "Banklara aidiyyatı olan şəxslərlə əməliyyatların aparılması Qaydaları" (Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2003-cü il 15 dekabr tarixli 3014 nömrəli şəhadətnamə verilməklə dövlət qeydiyyatına alınmış 2003-cü il 24 noyabr tarixli qərarı (18 nömrəli protokol) ilə edilmiş dəyişikliklər, Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2004-cü il 17 iyul tarixli 3068 nömrəli şəhadətnamə verilməklə dövlət qeydiyyatına alınmış 2004-cü il 28 iyun tarixli qərarı (11 nömrəli protokol) ilə edilmiş dəyişikliklər, Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2005-ci il 30 dekabr tarixli 3211 nömrəli şəhadətnamə verilməklə dövlət qeydiyyatına alınmış 2005-ci il 23 dekabr tarixli (38 nömrəli protokol) qərarı ilə edilmiş dəyişikliklər) ləğv edilsin.

3. Hüquq departamentinə tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**

“Təsdiq edilmişdir”
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar № 06/6
31 yanvar 2024-cü il

# Banklara aidiyyəti olan şəxslərlə əməliyyatların aparılması Qaydası

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda “Banklar haqqında” Azərbaycan Respublikası Qanununun 34.2.7-ci, 34.2.8-ci, 34.2.14-cü və 40.1.1-1-ci maddələrinə uyğun olaraq hazırlanmışdır və banklara, habelə xarici bankların yerli filiallarına (bundan sonra – banklar) aidiyyəti olan şəxslərlə aparılan əməliyyatlara dair minimum tələbləri müəyyən edir.

1.2. Bu Qaydada müəyyən edilmiş minimum tələblər nəzərə alınmaqla, banklar təhlükəsiz və sağlam bank fəaliyyətinin həyata keçirilməsi üçün banklara aidiyyəti olan şəxslərlə əməliyyatlara dair adekvat siyasət və prosedurlara malik olmalıdır.

1.3. Banklara aidiyyəti olan şəxslərlə əməliyyatların aparılması zamanı həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin və "Banklar haqqında” Qanununun tələblərinə əməl edilməlidir.

## 2. Anlayışlar

2.1. Bu Qaydada istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. banka aidiyyəti olan şəxslər (bundan sonra - aidiyyəti şəxs) - Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.1-ci maddəsində göstərilən şəxslər, habelə bankın nizamnamə kapitalında iştirak payından asılı olmayaraq müqavilə əsasında bankın qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən paya birbaşa və ya dolayı yolla malik olan hər hansı şəxs, bankın Audit Komitəsinin üzvləri, daxili audit bölməsinin əməkdaşları, qərarların qəbul edilməsində iştirak edən bankın digər əməkdaşları, bankın baş mühasibi (bu vəzifələri icra edən şəxs), həmin şəxslərlə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.1.3-cü maddəsində nəzərdə tutulmuş qohumluq əlaqələri olan şəxslər, banka aidiyyəti şəxs adından hərəkət etməyə hüququ olan şəxslər, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.1.6-cı və 49-1.1.7-ci maddələrində göstərilən şəxslərin ən azı 20 (iyirmi) faiz payla iştirak etdiyi hüquqi şəxslər, bazar şərtlərindən əhəmiyyətli dərəcədə fərqlənən və açıq-aşkar iqtisadi əsasları olmayan əməliyyatların aparıldığı şəxslər. Xarici bankın yerli filialının rəhbəri və baş mühasibi (bu vəzifələri icra edən şəxs), habelə xarici bankın rezidenti olduğu ölkənin qanunvericiliyinə görə xarici banka aidiyyəti olan digər şəxslər xarici bankın yerli filialının aidiyyəti şəxsləri hesab olunurlar;

2.1.2. əhəmiyyətli aidiyyəti şəxs krediti - bir aidiyyəti şəxsə verilən və məcmu miqdarı bankın tutulmalardan sonra I dərəcəli kapitalının 1 (bir) faizini və daha çox hissəsini təşkil edən kredit tələbi;

2.1.3. qismən əhəmiyyətli aidiyyəti şəxs krediti - bu Qaydanın 3.5.4-cü yarımbəndinin tələbləri nəzərə alınmaqla bir aidiyyəti şəxsə verilən və məcmu miqdarı bankın tutulmalardan sonra I dərəcəli kapitalının 1 (bir) faizinədək hissəsini təşkil edən kredit tələbi;

2.1.4. qeyri-standart aktiv – Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra – Mərkəzi Bank) normativ xarakterli aktlarına əsasən qeyri-standart aktiv kimi təsnifləşdirilmiş aktiv.

2.2. Bir şəxsin digər şəxsin səhmlərinə və ya paylarına birbaşa sahibliyi vasitəsi ilə yaranan (sayca üçüncü şəxsdən sonrakı əlaqələrdə) dolayı yolla iştirakın həcmi 10 (on) faizdən az olduqda belə iştirak bu Qaydanın məqsədləri üçün banka aidiyyəti olan şəxslərin müəyyən edilməsində nəzərə alınmır (məsələn, "A" şəxsi "B" şəxsində 45%, "B" şəxsi "C" şəxsində 60%, "C" şəxsi "D" şəxsində 30% paya malikdirsə (45%*60%*30%=8.1%) "A" şəxsi "D" şəxsində dolayı yolla iştirak etmiş hesab edilmir).

2.3. Bu Qaydaya əsasən kredit tələblərinin məcmu miqdarının hesablanması zamanı kredit tələblərinin qalıq məbləği nəzərə alınır. Bu Qaydada istifadə olunmuş "kredit tələbi" və "mühüm təsir" anlayışları Mərkəzi Bankın İdarə Heyətinin 2022-ci il 22 iyul tarixli 29/1-2 nömrəli Qərarı ilə təsdiq edilmiş "Kredit riskləri, o cümlədən iri kredit riskləri ilə bağlı prudensial normativ və tələblərə dair Qayda"da müəyyən edilmiş mənaları ifadə edir.

2.4. Bu Qaydada istifadə olunmuş təminat qruplarının dairəsi Mərkəzi Bankın İdarə Heyətinin 2022-ci il 22 iyul tarixli 29/1-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Aktivlərin təsnifləşdirilməsi və mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatların yaradılması Qaydası" ilə müəyyən olunur.

## 3. Aidiyyəti şəxslər üzrə kredit risklərinə dair normativ və tələblər

3.1. Aidiyyəti şəxslərə digər müştərilərdən fərqli olaraq güzəştli kreditlərin verilməsi və ya güzəştli şərtlərlə digər əməliyyatların aparılması qadağandır. Bu Qaydanın məqsədləri üçün güzəşt dedikdə bankın digər eyni kateqoriyalı müştəriləri ilə son 12 (on iki) ay ərzində aparılan oxşar xüsusiyyətli əməliyyatlara (məhsullara) tətbiq edilən şərtlərin orta göstəricisindən daha əlverişli şərtlər başa düşülür.

3.2. Aidiyyəti şəxslərdən qeyri-standart aktivlərin köçürülməsi (ötürülməsi/alınması), habelə qiymətləndirmə və auditor xidmətlərinin alınması qadağandır.

3.3. Aidiyyəti şəxslərə qarşı kredit tələblərinin məcmu miqdarı aşağıdakı hədlərdən artıq olmamalıdır (bankın daxili qaydalarında daha aşağı həddinin müəyyən olunduğu hallar istisna olmaqla):

3.3.1. bir hüquqi şəxs üzrə – bankın məcmu kapitalının 10 (on) faizindən;

3.3.2. bir fiziki şəxs üzrə – bankın məcmu kapitalının 3 (üç) faizindən;

3.3.3. bütün aidiyyəti şəxslər üzrə – bankın məcmu kapitalının 20 (iyirmi) faizindən.

3.4. Bank tərəfindən əhəmiyyətli aidiyyəti şəxs krediti təminatsız verilə bilməz. Bu zaman təminat qismində yalnız aşağıdakı tələblərə cavab verən birinci qrup təminatlar çıxış etməlidir:

3.4.1. kreditin təminatı qismində kreditlə eyni valyutada olan pul vəsaitləri çıxış etdikdə, həmin təminatın nominal dəyəri kredit tələbinin 100 (yüz) faizindən az olmamalı;

3.4.2. kreditin təminatı qismində bu Qaydanın 3.4.1-ci yarımbəndində müəyyən edilmiş təminatlar istisna olmaqla digər birinci qrup təminatlar çıxış etdikdə, həmin təminatların bazar dəyəri (pul vəsaitləri, qarantiya və zəmanətə münasibətdə nominal dəyəri) kredit tələbinin 125 (yüz iyirmi beş) faizindən az olmamalıdır.

3.5. Bank tərəfindən qismən əhəmiyyətli aidiyyəti şəxs krediti aşağıdakı şərtlər daxilində verilə bilər:

3.5.1. kreditin təminatı qismində kreditlə eyni valyutada olan pul vəsaitləri çıxış etdikdə, həmin təminatın nominal dəyəri kredit tələbinin 100 (yüz) faizindən az olmamalı;

3.5.2. kreditin təminatı qismində bu Qaydanın 3.5.1-ci yarımbəndində müəyyən edilmiş təminatlar istisna olmaqla digər birinci qrup təminatlar çıxış etdikdə, həmin təminatların bazar dəyəri (pul vəsaitləri, qarantiya və zəmanətə münasibətdə nominal dəyəri) kredit tələbinin 125 (yüz iyirmi beş) faizindən az olmamalı;

3.5.3. kreditin təminatı qismində ikinci, üçüncü və dördüncü qrup təminatlar çıxış etdikdə, həmin təminatların bazar dəyəri (qarantiyaya (zəmanətə) münasibətdə nominal dəyəri) kredit tələbinin 150 (yüz əlli) faizindən az olmamalı;

3.5.4. təminatların bazar dəyəri (pul vəsaitləri, qarantiya və zəmanətə münasibətdə nominal dəyəri) bu Qaydanın 3.5.1 – 3.5.3-cü yarımbəndlərində müəyyən edilmiş hədlərdən aşağı olduqda, kreditin təminatı qismində beşinci qrup təminatlar çıxış etdikdə, yaxud təminatsız verildikdə bu cür kredit tələblərinin məcmu miqdarı bankın tutulmalardan sonra I dərəcəli kapitalının 1 (bir) faizindən artıq olmamalıdır.

## 4. Aidiyyəti şəxslərlə əməliyyatların aparılması barədə qərarların qəbul edilməsi prosedurları

4.1. Məbləği bankın aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən aidiyyəti şəxs krediti müstəqil auditorun rəyi və səsvermədə iştirak etmək hüququ olan səhmdarların ümumi yığıncağının qərarı əsasında, məbləği bankın aktivlərinin 5 (beş) faizədək hissəsini təşkil edən aidiyyəti şəxs krediti isə qərarın qəbul edilməsi səlahiyyətinin səhmdarların ümumi yığıncağına həvalə edildiyi hallar istisna olmaqla, bankın Müşahidə Şurasının və ya bu Qaydanın 4.2-ci bəndinin tələbi nəzərə alınmaqla İdarə Heyətinin qərarı əsasında verilir.

4.2. Qismən əhəmiyyətli aidiyyəti şəxs krediti bankın səhmdarları, Müşahidə Şurasının və icra orqanının üzvləri istisna olmaqla digər aidiyyəti şəxslərə bankın İdarə Heyətinin qərarı ilə aşağıdakı şərtlər və limitlər daxilində verilə bilər:

4.2.1. İdarə Heyətinin qərarı ilə bir aidiyyəti şəxsə verilmiş kredit tələblərinin məcmu miqdarı bankın tutulmalardan sonra I dərəcəli kapitalının 0.01 faizindən çox olmamalıdır;

4.2.2. İdarə Heyətinin qərarı ilə bütün aidiyyəti şəxslərə verilmiş kredit tələblərinin məcmu miqdarı bankın tutulmalardan sonra I dərəcəli kapitalının 1 faizindən artıq olmamalıdır.

4.3. Aidiyyəti şəxsə kreditin verilməsinə dair qərarlarda aidiyyəti şəxsə verilmiş bütün əvvəlki kreditlərə və verilməsi nəzərdə tutulan kreditlərə dair məlumatlar (məsələn, əvvəllər aldığı kreditlər, onların ödənilməsi vəziyyəti, alınacaq kreditin məbləği, valyutası, faiz dərəcəsi və (və ya) digər ödənişlərin məbləği, borcalanın ödəmə qabiliyyətini əks etdirən məlumatlar, təminatların dəyərinə dair məlumatlar və s.) qeyd olunmalıdır. Qərarlar müvafiq iclas protokolları ilə rəsmiləşdirilir.

4.4. Bankın Müşahidə Şurasının və İdarə Heyətinin üzvləri aşağıdakı hallarda qərarların müzakirəsi başlamazdan əvvəl bu barədə məlumat verməli, müzakirədə və qərarın qəbulunda iştirak etməməli, habelə onun iştirakı yetərsayın müəyyən edilməsi zamanı nəzərə alınmamalıdır:

4.4.1. özü və Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.1.3-cü maddəsində nəzərdə tutulmuş qohumluq əlaqələri olan şəxslərə kreditlərin verilməsi məsələsi müzakirəyə çıxarıldıqda;

4.4.2. özünün mühüm iştirak payı olduğu və ya mühüm təsirə malik olduğu hər hansı hüquqi şəxsə kreditlərin verilməsi məsələsi müzakirəyə çıxarıldıqda.

## 5. Normativ və tələblərə dair pozuntunun aradan qaldırılması

5.1. Bank tərəfindən bu Qaydada müəyyən olunmuş normativ və tələblərin pozulması aşkar edildikdə bankın Baş risk inzibatçısı bu barədə növbəti iş günündən gec olmayaraq Mərkəzi Banka məlumat verməlidir. Məlumatda pozuntunun səbəbləri və aradan qaldırılması üzrə görüləcək tədbirlər göstərilməlidir.

5.2. Bank məcmu kapitalın səviyyəsinin azalması, borcalanın aidiyyəti şəxsə çevrilməsi, habelə təminatın itirilməsi və ya bazar dəyərinin azalması nəticəsində bu Qaydada müəyyən olunmuş normativ və tələblərin pozuntusunu 60 (altmış) təqvim günü ərzində aradan qaldırmalıdır.

## 6. Hesabatlıq və monitorinq

6.1. Bank aidiyyəti şəxslərlə əməliyyatlara dair hesabatı bu Qaydaya 1 nömrəli Əlavədə müəyyən edilmiş formada aylıq əsasda prudensial hesabatlarla birgə Mərkəzi Banka təqdim edir.

6.2. Bankın aidiyyəti şəxslərlə apardığı əməliyyatların bu Qaydanın və bankın daxili qaydalarının tələblərinə uyğunluğu bankın daxili audit bölməsi tərəfindən ən azı ildə bir dəfə qiymətləndirilir və qiymətləndirmənin nəticələri bankın Audit Komitəsinə təqdim edilir.

*"Banklara aidiyyəti olan şəxslərlə əməliyyatların aparılması Qaydası"na*
*Əlavə 1*

Bankın adı________________________________________
"____"____________________________________20__–__ il

**Aidiyyəti şəxslərə qarşı kredit tələbinə dair hesabat**

| A. № | Aidiyyəti şəxsin status (fiziki/hüquqi) | Aidiyyəti şəxsin tam adı (fiziki şəxs olduqda soyad, ad, ata adı) | Əməliyyatın xarakteri | Borcun (öhdəliyin) valyutası | İlkin müqavilə ilə borcun verilmə (öhdəliyin götürülmə) tarixi | Öhdəliyin restrukturizasiya edilib-edilməməsi | Son müqavilə ilə borcun (öhdəliyin) qaytarılma tarixi | Borcun (öhdəliyin) ilkin məbləği (balans) |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 1 | | | | | | | | |
| 2 | | | | | | | | |
| ... | | | | | | | | |

| Borcun (öhdəliyin) qalıq məbləği (balans) | Borcun (öhdəliyin) qalıq məbləği (balansdankənar) | Faiz dərəcəsi | Risk qrupu | Ehtiyat dərəcəsi | Vaxtı keçmiş kreditlər | Təminatın dəyəri | Təminatın forması (nağd pul, qiymətli kağız və s.) | Bankla əlaqəsi | Bankın aidiyyatı şəxsdə payı (%) | Aidiyyəti şəxsin bankda payı (%) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |

**Aidiyyəti şəxslərdən cəlb edilmiş depozitə dair hesabat**

| № | Aidiyyəti şəxsin statusu (fiziki/hüquqi) | Aidiyyəti şəxsin tam adı (fiziki şəxs olduqda soyad, ad, ata adı) | Depozitin növü (müddətli/tələbli) | Vəsaitin yerləşdirilmə tarixi | Vəsaitin qaytarılma tarixi | Depozitin valyutası | Depozitin məbləği | Faiz dərəcəsi | Bloklaş-dırılmış depozitin məbləği | Bankla əlaqəsi | Bankın aidiyyəti şəxsdə payı (%) | Aidiyyəti şəxsin bankda payı (%) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| 2 | | | | | | | | | | | | |
| ... | | | | | | | | | | | | |